Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

04.03.2019-ci il tarixli

Fakultə Elmi Şurasının iclasının

# Q Ə R A R I

Protokol № 6

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1.İctimai səhiyyə fakültəsi kafedralarında elmi-tədqiqat işlərinin nəticələri barədə fakültə dekanlığının hesabatı qənaətbəxş hesab edilsin;

2.ATU-nun Elmi-Tədqiqat Mərkəzinin direktoru, professor Q.Qarayevin ETM-nin illik fəaliyyəti barədə hesabatı  qənaətbəxş hesab edilsin;

3.Fakültənin TEC-nin konfransına hazırlığın vəziyyəti və keçirilməsi barədə  Fakültə TEC-in sədri F.Tağıyevanın hesabatı qənaətbəxş hesab edisin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1.Kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyətinə və dinamikasına nəzarət etsinlər;

2.Yerli və xarici mətbuatda elmi əsərlərin nəşrinə, eləcə də beynəlxalq konfranslarda iştirak etmək istəyən əməkdaşlara şərait yaradılsın;

3.Kafedralarda elmi-tədqiqat işi aparan əməkdaşlarla, eləcə də onların elmi rəhbərləri və ya elmi məsləhətçiləri ilə  mütəmadi olaraq müzakirələr aparılsın, çətinliklərin aradan qaldırılması üçün onlara dəstək olsunlar;

4.Ayrı-ayrı kafedraların elmi işlə məşğul olan əməkdaşlarının birgə tədqiqatları yerinə yetirməsinə və lazım gələrsə universitetin maddi-texniki imkanlarından istifadə etməsinə Universitet rəhbərliyinə müraciət olunmaqla şərait yaradılsın;

5. Kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyəti (icra müddəti, yerinə yetirilmə mərhələsi, dərc olunmuş nəşrlər, yaranan çətinliklər və s.) kafedra iclasında müzakirə olunaraq yazılı məlumat 5 iş günü müddətində dekanlığa təqdim edilsin;

6. TEC-in işində bütün müəllimlərin fəal iştirak etməsinə nəzarət edilsin, eləcə də bu sahədə fəallıq göstərən müəllimlərə motivasion yönümdə diqqət artırılsın;

7. Problem komissiyaların sədrlərinə tapşırılsın ki, kafedralarda elmi-tədqiqat işi aparan əməkdaşların (doktorant və dissertantların) illik hesabatları müzakirə edilsin və iclasın protokolunun çıxarışı dekanlığa təqdim olunsun.

III. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva